# ÜMUMMİLLİ LİDERİMİZ HEYDƏR ƏLİYEVİN İRSİNDƏ NOVRUZ MÖVZUSU

*Nigar BABAYEVA*

Böyüklüyündən və kiçikliyindən asılı olmayaraq hər bir xalqın həyatında elə adət-ənənələr vardır ki, illər bir-birini əvəz etdikcə həmin ənənələr daha da zənginləşir. Xalq belə zənginləşmiş adət-ənənələri cəsarətlə qoruyaraq, təbliğ edir, onun gəlişini toy-bayram kimi qarşılayır. Xalq tərəfindən təntənə ilə qarşılanan bayramlardan biri də Novruz bayramıdır. Novruz mərasimləri üstqurum hadisəsi olmaqla ictimai varlığa güclü təsir edir və insan amilinin formalaşmasına güclü təsir göstərir.

Xalqımızın əsrlər boyu yaradıb yaşatdığı zəngin milli mənəvi sərvətlərin qorunub saxlanılması və dəyərləndirilməsi istiqamətində müxtəlif zamanlarda çeşidli tədbirlər həyata keçirilsə də, bu sahədə sistemli və iri miqyaslı fəaliyyətə iyirminci yüzillikdə daha çox diqqət yetirilməyə başlanılmışdır. Sovet hakimiyyətinin ilk onilliklərində sadə, zəhmətkeş xalqa məxsus mənəvi mədəniyyətin əsas göstəricisi kimi şifahi xalq ədəbiyyatının toplanması, nəşri və tədqiqi işinə xüsusi əhəmiyyət verilsə də, bu daha çox mövcud ideoloji sistemə xidmət məqsədi daşımışdır. Türk-islam dəyərləri, xalqın gerçək milli tarixi yaddaşını əks etdirən Novruz bayramı kimi dərin fəlsəfi məzmuna malik etnoqrafik mərasimə yasaq qoyulmuşdur. Bildiyimiz kimi uzun illər ərzində öz müstəqilliyini itirmiş Azərbaycan xalqının bir çox milli-mənəvi dəyərləri deformasiyaya uğramış, tarixin yalnız şifahi yaddaşına çevrilmişlər. Keçmiş sovet dövlətinin kommunist idoloji mühiti Novruz ənənələrimizin öyrənilməsinə və təbliğinə qadağalar qoymuşdur. Sovet dövründə idioloji fon yaratmaq xatirinə insanları kommunist rejimi dövrünün bayramlarına kütləvi şəkildə cəlb etməyə çalışırdılar. İnsanlar çox zaman kommunist rejimin repressiyalarından qorxduqları üçün kütləvi bayramlara qatılmağa məcbur olurdular. Lakin, insanların arzu və istəyini əks etdirən, hansı formada olursa olsun, onların mənəvi ehtiyaclarını ödəyən Novruz ənənələri ictimai quruluşun iqtisadi mühitindən asılı olmayaraq yaşamışdır.

Azərbaycanın Rusiya tərəfindən işğalına qədər (1813-1828) ölkəmizdə təzə il martın 21-dən başlayırdı. Azərbaycan Xalq Cümhuriyyəti zamanında (1918-1920) da yeni ilin Novruz bayramından başlanması haqqında qərar verilmişdir. 1920-ci il bolşevik Rusiyasının işğalı zamanı yeni ilin Novruzdan başlanmasını yasaq etmiş, Sovet Azərbaycanında ifrat solçuluq təsirləri nəticəsində Novruz bayramına dini damğa basılaraq, onun keçirilməsi rəsmən qadağan edilmişdir [1, s. 39].

XX əsrin ikinci yarısının əvvəllərində Sovetlər İttifaqında gedən siyasi mülayimləşmə mənəvi həyatın bu sahəsindəki gərgin havanın yumşalmasına müəyyən qədər təsir göstərsə də, Novruz bayramına münasibətin sinfi yanaşma mövqeyindən milli yanaşma müstəvisi üzərinə keçməsi 1960-cı illərin sonlarına, 1970-ci illərin əvvəllərinə qədər uzandı. 1969-cu ildə baş verən tarixi dəyişiklik-Heydər Əliyevin Azərbaycan Respublikasının siyasi rəhbəri vəzifəsinə keçməsi bir çox başqa sahələrlə yanaşı, mənəvi humanitar istiqamətin, o cümlədən də milli mədəniyyətimizlə bağlı elmi və mədəni-təşkilati fəaliyyətin canlanmasına

mədəniyyətin inkişaf yollarına nəzər salmağa, yeni ənənələrin inkişafını sürətləndirməyə təkan verir. Eyni keçmiş dövrlərdə yaranmış Novruz ənənələri də unudulmur, onlara müasir həyat tərzinin tələbələrinə uyğun olaraq dövlət səviyyəsində qayğı göstərilir. Məsələn: "Novruz"un şəxsən ölkə Prezidentinin iştirakı ilə təntənəli şəkildə qeyd olunması ənənəvi hal almışdır. Bununla əlaqədar olaraq Novruz bayramı haqqında mətbuatda, ictimai-elmi ədəbiyyatlarda geniş məlumatlar verilmişdir [2, s.84].

İndiki mərhələdə bütün Azərbaycan xalqı Novruz bayramı gününü yeni il şənliyi səviyyəsində qeyd edirlər. Bu xüsusiyyət Novruz bayramının daha təntənəli şəkildə keçirilməsinə imkanlar yaradır.

Ümummilli Liderimiz Heydər Əliyev dəfələrlə qeyd etmişdir ki, xalq öz mədəniyyətinə, milli-mənəvi dəyərlərinə görə tanınır: "Milli ideologiyamızın əsas hissəsi bizim milli-mənəvi dəyərlərimizdir. Bizim milli mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında, fəaliyyətində formalaşıbdır. Milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət və həqiqi xalq ola bilməz." [2, s. 71].

Ulu Öndərimiz Heydər Əliyevin hər il Bakıda İçərişəhərin qoşa qapısı qarşısında, küçə və meydanlarda keçirilən Novruz şənliklərində iştirak etməsi, şənliyə gələnlərdən hər biri ilə səmimi görüşləri əlamətdar hadisəyə çevrilirdi. Öz çıxışlarında o, Novruz bayramının müstəqil və suveren Azərbaycan dövlətinin rəsmi bayramları sırasına daxil olunduğunu, doğma xalqımızın ən qədim mərasimlərini, adət-ənənələrini özündə yaşadan bu bayramın milli təfəkkürümüzün ayrılmaz hissəsinə çevrildiyini yüksək qiymətləndirirdi.

Ümummilli Liderimiz Heydər Əliyev Novruz bayramının müstəqil və suveren Azərbaycan dövlətinin rəsmi bayramları sırasına daxil olunduğunu, doğma xalqımızın ən qədim mərasimlərini, adət-ənənələrini özündə yaşadan bu bayramın milli təfəkkürümüzün ayrılmaz hissəsinə çevrildiyini yüksək qiymətləndirirdi.

Ölkə prezidentimiz İlham Əliyev mütəmadi olaraq Novruz şənliklərini öz xalqı ilə birgə keçirir, İçərişəhər Qala Qapısında Novruz şənliyinə toplaşan insanlarla bərabər konsert nömrələrinə qulaq asır, öz ailə üzvləri ilə birgə əylənərək xalqının xoş günündən zövq alır.

Mart ayının 19-da Bakıda Azərbaycan xalqının milli bayramı-Novruz münasibətilə ümumxalq şənlik keçirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva hər il olduğu kimi Novruz şənliyində iştirak edirlər. Dövlətimizin başçısı və xanımı əvvəlcə Qız qalasının qarşısındakı meydana gəlirlər. Burada Prezidentimiz təbrik nitqi ilə çıxış edir. Sonra İlham Əliyev və Mehriban Əliyeva Dənizkənarı Milli Parka gəlirlər. Dövlətimizin başçısını və xanımını Novruz bayramının əsas personajları Kosa və Keçəl qarşılayırlar. Kosa və Keçəl prezidenti və xanımını bayram münasibətilə təbrik edirlər. Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva bayram konsertinə baxırlar. Dövlətimizin başçısı və xanımı Kənd Təsərrüfatı Nazirliyinin bayram münasibətilə təşkil etdiyi "Novruz" yarmarkası ilə tanış olurlar. Burada bərəkətli Azərbaycan torpağında yetişdirilmiş məhsullar nümayiş etdirilir.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva musiqiçilərin ifalarını dinləyib, Azərbaycan xalçalarının nümunələri ilə tanış olurlar. Ölkəmizin müxtəlif bölgələrini təmsil edən özfəaliyyət kollektivlərinin çıxışı və sənətkarlıq nümunələri maraqla qarşılanır. Bir tərəfdə isə gənc pəhləvanlar xalça üzərində quşaq tutur, idmançılar məharətlərini göstərirdilər. Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva bu səhnələri maraqla izləyirlər, qədim el sənətlərinin nümunələrinə baxırlar. Ulu babalarımızdan bu günkü nəslə yadigar qalan qədim el sənətlərinin nümayiş olunduğu mərasimdə, həmçinin Novruz bayramının rəmzi olan müxtəlif şirniyyat nümunələri də təqdim edilir. Müxtəlif rayonlardan gətirilmiş Novruz mətbəxinin nümunələri də şənlik iştirakçılarında böyük maraq doğurur. Azərbaycan prezidenti onun pişvazına və bayram gəzintisinə çıxmış Bakı sakinlərinə və paytaxtımızın qonaqlarına Novruz münasibətilə bir daha xoş arzularını yetirir [8, s.2].

Beləliklə, Novruz bayramının əsas keyfiyyətlərindən biri onun beynəlmiləl məzmun daşıması olub, bu bayramı Şərq xalqlarının əksəriyyəti təntənə ilə qeyd edir. Məhz bu cəhət həmin xalqların beynəlmiləl həmrəyliyini gücləndirərək dostluğunu daha da möhkəmləndirir. Novruz bayramı çoxsaylı mərasimləri ilə milli-dini mənsubiyyətindən asılı olmayaraq xalqlar arasında dostluq hisslərini tərbiyə edir, onları ümumi şənliyə, mehribançılığa səsləyərək, ayrı-ayrı millətlərə mənsub olan ailələr bir-birinə qovuşdurur. Novruz ənənələri, ayin və mərasimləri özünün xeyriyyəçilik, yardım, əl tutmaq kimi xalqımıza məxsus yüksək humanist mənəvi keyfiyyətləri tarixdən formalaşmış və müasir dövrümüzdə də davam etdirilməkdədir. Novruz adət-ənənələrinin yaşadılaraq gələcək nəsillərə çatdırılmasında Ümummilli Liderimiz Heydər Əliyev irsinin rolu danılmazdır.

## ƏDƏBİYYAT


1. Abdullayev İ. İctimai münasibətlər sistemi və adət-ənənələr. Bakı, Elm, 1998, səh. 102.
2. Abdulla B., Babayev T. Novruz Bayramı Ensiklopediyası. Bakı, Şərq-Qərb, 2009, 207 səh.
3. Mehdiyev İ., Mirzə A. Novruz töhvələri. Bakı, Gənclik, 1990, 110 səh.
4. Abduləliyev A. Heydər Əliyev və musiqi mədəniyyəti. Heydər Əliyev-90. №1(54), 2013, s.4-16.
5. Qasımlı M. Heydər Əliyev və Azərbaycan folkloru. Bakı, Ozan dünyası № 2, 2010, səh. 3-19
6. Əlibəyzadə E. Azərbaycan xalqının mənəvi mədəniyyəti tarixi. Bakı, Gənclik, 1998.
7. Qasımzadə F.F. Novruz bayramı. Bakı, Bilik, 1989.
8. https://azertag.az/xeber/prezident İlham Əliyev24









Məqalədə Ulu Öndər Heydər Əliyevin Novruz bayramının qorunması və inkişafında rolundan bəhz olunur. Azərbaycan xalqının bu qədim bayramının kökləri mg əhəmiyyəti barədə söz açılır. Müxtəlif tarixi dövrlərdə ona qarşı münasibətin dəyişilməsi izlənilir. SSRİ dövründə bu bayramın qadağan olunması, lakin XX əsrin II yarısında H.Əliyevin səyləri nəticəsində Novruzun yenə də bərpa olunması, Azərbaycanın azadlıq əldə etməsindən sonra daha geniş vüsət alması barədə danışılır. Bu proseslərin "Novruz bayramı ensiklopediyası"nın yaranması ilə nəticələnməsi və müasir dövrdə davam etməsindən bəhz olunur.


**Açar sözləri:** Novruz, bayram, musiqi, milli, mədəniyyət

### Претворение темы Новруза в научном и культурном наследии великого лидера Азербайджана Гейдара Алиева


В статье рассматривается роль великого лидера Гейдара Алиева в сохранении и развитии праздника Новруз. Повествуется о корнях и важности этого древнего праздника азербайджанского народа. Наблюдается изменение отношения к Новрузу в разные исторические периоды. Отмечается, что во время СССР этот праздник был запрещен, но во второй половине двадцатого века благодаря усилиям Г. Алиева он вновь стал широко отмечаться, особенно, после обретения Азербайджаном независимости в 90-е годы XX века. Эти процессы стали результатом внимания Г.Алиева к этому празднику и его указа о создании «Энциклопедии праздника Новруз».


**Ключевые слова:** Новруз, праздник, музыка, национальный, искусство

### Transformation of Novruz's theme in the scientific and cultural heritage of the great leader of Azerbaijan Heydar Aliyev


The article examines the role of the great leader Heydar Aliyev in preserving and developing the Novruz holiday. It is also narrated in the article about the roots and importance of this ancient holiday of the Azerbaijani people. There is a change in attitude towards Novruz in different historical periods. It is noted that during the Soviet Union this holiday was banned, but in the second half of the twentieth century, thanks to H. Aliyev's efforts, this holiday again began to be widely celebrated, especially after Azerbaijan gaining independence in the 90s of the 20th century. These processes were the result of attention devoted by H. Aliyev to this holiday and his decree on the creation of the "Encyclopedia of the Novruz holiday".


**Key words:** Novruz, holiday, music, national, culture

# AZƏRBAYCANIN MƏDƏNİYYƏT SİYASƏTİNDƏ ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ƏNƏNƏLƏRİ

*Maral ƏSƏDOVA*

Ümummilli liderimiz Heydər Əliyevin ölkəyə rəhbərliyi dövründə onun mədəniyyət siyasəti sahəsindəki fəaliyyəti, xarici ölkələrin dövlət başçıları ilə imzaladığı sazişlər, Ulu öndərin cıxışları və məruzələrindəki fikirlər əsas elmi mənbə olub, tədqiqatların əsaslandığı baza əhəmiyyəti daşıyır. Heydər Əliyevin mədəniyyət siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xarici ölkə başçıları ilə görüşləri, qarşılıqlı mübadilə ilə bağlı əldə olunan razılaşma sənədləri də bu baxımdan xüsusi dəyərə malikdir.

Ümummilli liderimiz Heydər Əliyev dönə-dönə vurğulamışdır ki, hər bir xalqın mədəni irsi onun milli sərvəti, tarixi və bu günüdür. Azərbaycan xalqının mədəniyyəti dünyanın ən qədim mədəniyyətlərindən sayılır. Hələ qədim zamanlardan bu ərazilərdə əcdadlarımızın yaratdığı zəngin mədəni irs - tarixi abidələr, şifahi və yazılı ədəbiyyat, memarlıq, rəssamlıq, xalçaçılıq, musiqi sənəti nümunələri Azərbaycan xalqının bəşər sivilizasiyası xəzinəsinə bəxş etdiyi layiqli töhfələrdir. Xalqımızın həmin ənənələri üzərində yüksələn mədəniyyətimiz müasir dövrdə də öz inkişafını davam etdirir. Bu baxımdan Azərbaycanın bir sıra görkəmli şəxsiyyətlərinin yubileylərinin YUNESKO xətti ilə yüksək səviyyədə qeyd olunması, İçərişəhər tarixi-memarlıq qoruğunun "Dünya İrs

səbəb oldu. 1970-ci illərdə Heydər Əliyevin müdrik və uzaqgörən bir rəhbər kimi Azərbaycanda yeritdiyi siyasətin tərkibində xüsusi yer tutan humanitar istiqamət məhz belə bir iqlimin yaranmasına gətirib çıxardı. Bu illərdən başlayaraq milli ruhun güclənməsi, vətənpərvərlik ideyalarının qüvvətlənməsi nəzərə çarpacaq bir dalğalanma yaratdı. Vaxtilə yasaqlara məruz qalmış Novruz bayramının Azərbaycanda hər il dövlət səviyyəli tədbir kimi keçirilməsi də Ulu Öndərimiz Heydər Əliyevin ictimai-siyasi fəaliyyəti ilə sıx şəkildə bağlıdır. Azərbaycan xalqının mənəvi həyatında mühüm hadisəyə çevrilən Novruz bayramı tədbirlərinin böyük əksəriyyətində Heydər Əliyev vaxt taparaq özü şəxsən iştirak etmiş, milli-mənəvi dəyərləri yüksək qiymətləndirən ürək sözlərini söyləmiş, xeyir-duasını vermişdir. Şübhəsiz ki, respublikanın başında duran birinci şəxsin belə bir mövqe nümayiş etdirməsi, bu tədbirlərin təşkilatçısı, iştirakçıları və xalqı ruhlandıraraq milli-mənəvi dəyərlərimizə qarşı həssaslığı gücləndirmişdir. Heydər Əliyevin söylədiyi bu və ya bu qəbildən olan digər istiqamətverici mülahizələri elmə və sənət adamlarını milli mənəvi dəyərlərin öyrənilməsi, qorunması və bütövlükdə gənc nəslə mənimsədilməsi işinə yönəldilirdi. 1979-cu ildə İçərişəhərdə keçirilən Novruz şənlikləri onun göstərişi əsasında Azərbaycan televiziyası ilə birbaşa translyasiya edilmişdir. Bu, həmin dövr üçün böyük cəsarət tələb edən bir hərəkət idi. Şübhəsiz ki, belə bir addımın atılmasında böyük siyasi avtoritet kimi Heydər Əliyev şəxsiyyəti mühüm rol oynamışdır.

1970-80-ci illərdə milli-etnoqrafik həyatımızla bağlı bayram mərasimlərinin keçirilməsini mümkün ola biləcək imkanlar daxilində təşkil və himayə edən Heydər Əliyev 1990-cı illərdə - hakimiyyətinin ikinci dönəmində Novruz bayramının dövlət statuslu bayramlar sırasına daxil edilməsini gerçəkləşdirmişdir. Respublikamızda müstəqilliyin bərqərar olması bir çox mənəvi dəyərlər kimi Novruz adət-ənənələrini də xalqa qaytarmış, 1990-cı il martın 13-də Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən Novruz bayramının xalqımızın ən sevimli bayramı kimi qeyd olunması barədə rəsmi qərar imzalanmışdır [2, s.17].

Hər il böyük təntənə ilə qeyd olunan Novruz mərasimlərində müdrik rəhbər xalq arasında olur, el bayramlarında yaxından iştirak edirdi. 1997-ci ilin yazında İçərişəhərdə keçirilən Novruz mərasiminə təşrif gətirən Azərbaycan Respublikasının Prezidenti etnoqrafik etüdlərə, çal-çağırlara, xalq rəqslərinə, Novruzla bağlı göstərilən el adətlərinə səmimi nəzər yetirərək, mərasimə toplaşanları salamlayır və elin bayramını təbrik edirdi. Birdən o, ayaq saxladı və "Bala Nərgiz" aşıq mahnısını böyük şövqlə oxuyan cavan bir aşığa yaxınlaşdı. Prezidentin üzündəki səmimi təbəssüm və məmnunluq onun gənc aşığın oxumasından necə böyük zövq aldığını aydın göstərirdi. Cavan aşıq oxuyub qurtardıqdan sonra Heydər Əliyev əlini onun kürəyinə vurub dedi: "Bu mahnı çox gözəldir. Sən də onu gözəl oxudun. Sag ol! Belə mahnılar adamın ruhunu oxşayır." [5, s.12].

Prezidentin xalq mahnısına belə həssas münasibəti şübhəsiz ki, onun xalq ruhuna, xalq musiqisinə, bir sözlə milli-mənəvi dəyərlərə bağlılığından irəli gəlir. Ümummilli Liderimizin Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbriklərində dəonun mənsub olduğu etnosun mənəvi-tarixi dəyərlərinə həssas münasibəti öz əksini tapırdı. Soykökdən, qan yaddaşından gələn milli-mənəvi keyfiyyətlərin, xəlqi koloritin qüvvəsi özünü Heydər Əliyevin qeyri-adi, bənzərsiz natiqlik qabiliyyətində də əks etdirirdi.

Ulu Öndərimizin tarixi sərəncamı əsasında Azərbaycan Respublikası milli bayramları sırasında önəmli yer tutan Novruz bayramının tarixi köklərini, bu iri miqyaslı mərasim kompleksinə bağlı olan qədim adət-ənənələrimizi, süfrə-mətbəx mədəniyyətimizi, bayramlaşma etiketlərinin ortaq və regional özünəməxsusluğunu, bir sözlə Novruzun dolğun və mükəmməl mənzərəsini elmi əsaslar və etnoqrafik təsvir planları ilə geniş oxucu auditoriyasına çatdırmaq üçün həmin istiqamətin elmi-tarixi təcrübəsi əsasında ayrıca "Novruz bayramı ensiklopediyası" yaratmaq məqsədyönlü sayılmışdır. Qədimdən bu günə qədər yaşayan və yaddaşlarda özünə yuva quran Novruz bayramı bu ensiklopediyada təkcə etnoqrafik etüdlərlə, adət-ənənələrin zahiri cəhətləri ilə deyil, milli-mənəvi xüsusiyyətləri, psixoloji mahiyyəti ilə açılıb göstərilir. Xalqın çoxillik düşüncə tərzində, mifoloji təfəkküründə, folklorunda-bədii yaddaşında özünə yer tutmuş Novruz ayinləri fikir stereotiplərindən uzaq, xalq ruhuna, mənəviyyatına və danışıq şəklinə yaxın formalarda, yüksək bədii və saf dildə qələmə alınmışdır. Novruzun bəşəri mahiyyətini açan ən xarakterik xüsusiyyətlər ensiklopediyada elmi-kütləvi, bədii-publisistik, tarixi-etnoqrafik üslubların ortağı kimi seçilçiş bir formada oxucuya təqdim olunur [2, s. 5].

Bu gün Azərbaycan xalqı özünün milli oyanış, milli özünüdərk dövrünü yaşayır. Bu dövr hər bir şəxsin milli mənsubiyyətini dərk etməsi, soykökünə qayıdış, keçmişin ibrət dərslərindən nəticə çıxarmaq, mədəniyyətimizi və tariximizi gələcək nəsillərə düzgün öyrətmək kimi məsələlərlə səciyyələnir. Bu bir həqiqətdir ki, milli şüurun formalaşması hər bir şəxsin öz milli mənsubiyyətini dərk etməsinə şərait yaradır və nəticədə başqa xalqlara hörmət, məhəbbət hissi meydana gəlir. İnsan ictimai varlıq kimi öz fəaliyyətini təkmilləşdirdikcə vərdişlər, bayram adət və ənənələri də təşəkkül taparaq formalaşır. Adət və ənənələr ictimai həyatın bütün sahələrini əhatə etmiş, bu və ya digər formalarda mənəvi davranış normalarına çevrilmişlər. Novruz ənənələri təkcə mənəvi cəhətlərin təzahürü olmamış, həm də cəmiyyətin sosial mədəni tərəqqisinin mühüm göstəricilərindən biri kimi formalaşmışdır. Novruz ənənələri maddi və mənəvi tərəqqinin nəticəsi kimi milli təkamülün göstəricilərindən biri olmuşdur. Təkamülün tarixi mərhələlərlə baş verməsi ayrı-ayrı ictimai formasiyalara məxsus olan adət və ənənələri, mərasim və bayramları da bir-birindən fərqləndirmişdir.

Müstəqillik əldə olunduqdan sonra mövcud olan Novruz ənənələrinin inkişaf etdirilməsi mədəniyyət müəssisələri üçün mühüm əhəmiyyət kəsb etmişdir. Respublikada görülən işlər müasir mərhələdə

mədəniyyətin inkişaf yollarına nəzər salmağa, yeni ənənələrin inkişafını sürətləndirməyə təkan verir. Eyni keçmiş dövrlərdə yaranmış Novruz ənənələri də unudulmur, onlara müasir həyat tərzinin tələbələrinə uyğun olaraq dövlət səviyyəsində qayğı göstərilir. Məsələn: "Novruz"un şəxsən ölkə Prezidentinin iştirakı ilə təntənəli şəkildə qeyd olunması ənənəvi hal almışdır. Bununla əlaqədar olaraq Novruz bayramı haqqında mətbuatda, ictimai-elmi ədəbiyyatlarda geniş məlumatlar verilmişdir [2, s.84].

İndiki mərhələdə bütün Azərbaycan xalqı Novruz bayramı gününü yeni il şənliyi səviyyəsində qeyd edirlər. Bu xüsusiyyət Novruz bayramının daha təntənəli şəkildə keçirilməsinə imkanlar yaradır.

Ümummilli Liderimiz Heydər Əliyev dəfələrlə qeyd etmişdir ki, xalq öz mədəniyyətinə, milli-mənəvi dəyərlərinə görə tanınır: "Milli ideologiyamızın əsas hissəsi bizim milli-mənəvi dəyərlərimizdir. Bizim milli mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında, fəaliyyətində formalaşıbdır. Milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət və həqiqi xalq ola bilməz." [2, s. 71].

Ulu Öndərimiz Heydər Əliyevin hər il Bakıda İçərişəhərin qoşa qapısı qarşısında, küçə və meydanlarda keçirilən Novruz şənliklərində iştirak etməsi, şənliyə gələnlərdən hər biri ilə səmimi görüşləri əlamətdar hadisəyə çevrilirdi. Öz çıxışlarında o, Novruz bayramının müstəqil və suveren Azərbaycan dövlətinin rəsmi bayramları sırasına daxil olunduğunu, doğma xalqımızın ən qədim mərasimlərini, adət-ənənələrini özündə yaşadan bu bayramın milli təfəkkürümüzün ayrılmaz hissəsinə çevrildiyini yüksk qiymətləndirirdi.

Ümummilli Liderimiz Heydər Əliyev Novruz bayramının müstəqil və suveren Azərbaycan dövlətinin rəsmi bayramları sırasına daxil olunduğunu, doğma xalqımızın ən qədim mərasimlərini, adət-ənənələrini özündə yaşadan bu bayramın milli təfəkkürümüzün ayrılmaz hissəsinə çevrildiyini yüksək qiymətləndirirdi.

Ölkə prezidentimiz İlham Əliyev mütəmadi olaraq Novruz şənliklərini öz xalqı ilə birgə keçirir, İçərişəhər Qala Qapısında Novruz şənliyinə toplaşan insanlarla bərabər konsert nömrələrinə qulaq asır, öz ailə üzvləri ilə birgə əylənərək xalqının xoş günündən zövq alır.

Mart ayının 19-da Bakıda Azərbaycan xalqının milli bayramı-Novruz münasibətilə ümumxalq şənlik keçirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva hər il olduğu kimi Novruz şənliyində iştirak edirlər. Dövlətimizin başçısı və xanımı əvvəlcə Qız qalasının qarşısındakı meydana gəlirlər. Burada Prezidentimiz təbrik nitqi ilə çıxış edir. Sonra İlham Əliyev və Mehriban Əliyeva Dənizkənarı Milli Parka gəlirlər. Dövlətimizin başçısını və xanımını Novruz bayramının əsas personajları Kosa və Keçəl qarşılayırlar. Kosa və Keçəl prezidenti və xanımını bayram münasibətilə təbrik edirlər. Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva bayram konsertinə baxırlar. Dövlətimizin başçısı və xanımı Kənd Təsərrüfatı Nazirliyinin bayram münasibətilə təşkil etdiyi "Novruz" yarmarkası ilə tanış olurlar. Burada bərəkətli Azərbaycan torpağında yetişdirilmiş məhsullar nümayiş etdirilir.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva musiqiçilərin ifalarını dinləyib, Azərbaycan xalçalarının nümunələri ilə tanış olurlar. Ölkəmizin müxtəlif bölgələrini təmsil edən özfəaliyyət kollektivlərinin çıxışı və sənətkarlıq nümunələri maraqla qarşılanır. Bir tərəfdə isə gənc pəhləvanlar xalça üzərində quşaq tutur, idmançılar məharətlərini göstərirdilər. Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva bu səhnələri maraqla izləyirlər, qədim el sənətlərinin nümunələrinə baxırlar. Ulu babalarımızdan bu günkü nəslə yadigar qalan qədim el sənətlərinin nümayiş olunduğu mərasimdə, həmçinin Novruz bayramının rəmzi olan müxtəlif şimiyyat nümunələri də təqdim edilir. Müxtəlif rayonlardan gətirilmiş Novruz mətbəxinin nümunələri də şənlik iştirakçılarında böyük maraq doğurur. Azərbaycan prezidenti onun pişvazına və bayram gəzintisinə çıxmış Bakı sakinlərinə və paytaxtımızın qonaqlarına Novruz münasibətilə bir daha xoş arzularını yetirir [8, s.2].

Beləliklə, Novruz bayramının əsas keyfiyyətlərindən biri onun beynəlmiləl məzmun daşıması olub, bu bayramı Şərq xalqlarının əksəriyyəti təntənə ilə qeyd edir. Məhz bu cəhət həmin xalqların beynəlmiləl həmrəyliyini gücləndirərək dostluğunu daha da möhkəmləndirir. Novruz bayramı çoxsaylı mərasimləri ilə milli-dini mənsubiyyətindən asılı olmayaraq xalqlar arasında dostluq hislərini tərbiyə edir, onları ümumi şənliyə, mehribançılığa səsləyərək, ayrı-ayrı millətlərə mənsub olan ailələr bir-birinə qovuşdurur. Novruz ənənələri, ayin və mərasimləri özünün xeyriyyəçilik, yardım, əl tutmaq kimi xalqımıza məxsus yüksək humanist mənəvi keyfiyyətləri tarixdən formalaşmış və müasir dövrümüzdə də davam etdirilməkdədir. Novruz adət-ənənələrinin yaşadılaraq gələcək nəsillərə çatdırılmasında Ümummilli Liderimiz Heydər Əliyev irsinin rolu danılmazdır.